# Sağlam gələcək naminə uğurlu addım

Ailə institutunun sağlam inkişafı yalnız mənəvi dəyərlərlə deyil, həm də bioloji və tibbi təhlükəsizlik meyarları ilə şərtlənir. Bu kontekstdə qan qohumları arasında bağlanan nikahlar ölkəmizdə də mühüm ictimai-səhiyyə və sosial-iqtisadi narahatlıq doğuran məsələlərdəndir. Həm genetik təhlükə riski, həm də sosial yük baxımından bu tip nikahlar dərin və çoxşaxəli problemlərə yol açır.

**(davamı 10-cu səhifədə)**




HADİSƏLƏR KONTEKSTİNDƏ




# Sağlam gələcək naminə uğurlu addım

(əvvəli 1-ci səhifədə)

Hazırda dünya əhalisinin təqribən 10 faizi genetik xəstəliklərdən əziyyət çəkir. Bu statistikanın artmasında qan qohumları arasında nikahların payı böyükdür. Bu baxımdan, Azərbaycanda qohum nikahlarının mənfi nəticələrinin qarşısının alınması üçün hüquqi və institusional mexanizmlər formalaşdırılıb. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci maddəsinə əsasən, yaxın qohumlar arasında nikaha icazə verilmir. Bu müddəa ailə institutunun qorunması, gələcək nəsillərin sağlamlığının təmin olunması baxımından hüquqi baryer kimi çıxış edir. Daha bir mühüm hüquqi yenilik 2015-ci ildə Ailə Məcəlləsinə edilən dəyişikliklə bağlıdır. Həmin dəyişiklik nikaha daxil olmaq istəyən şəxslər üçün icbari tibbi müayinəni zəruri şərt kimi irəli sürür. Bu tədbir şəxslərin sağlamlıq vəziyyəti haqqında məlumat vermək, eyni zamanda genetik riskləri öncədən aşkarlayaraq sağlamlıq imkanları məhdud uşaqların doğulmasının qarşısını almağa xidmət edir. 2020-ci ildə Nazirlər Kabineti tərəfindən təsdiq edilən "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" bu istiqamətdə atılan mühüm addımlardandır. Sənəddə həm erkən nikahların, həm də qohum nikahlarının bioloji və sosial nəticələri izah olunur, eləcə də qohum nikahının nənə və babası ortaq olan gənclər arasında bağlanan nikah formasında başa düşüldüyü qeyd edilir. Bu qərarın verilməsində əsas məqsəd təkcə hüquqi məhdudiyyətləri deyil, həm də əhalinin maarifləndirilməsi yolu ilə məsuliyyətli ailə modelini təşviq etməkdir. Maarifləndirmə tədbirləri eyni zamanda genetik məsləhət xidmətləri ilə dəstəklənir. Belə məsləhətlərin tətbiqi vətəndaşların potensial genetik risklər haqqında məlumatlanmasına və daha düzgün seçimlər etməsinə imkan verir.

Qaydaların icrasına nəzarət məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hər ilin yanvar ayında aidiyyəti qurumlardan toplanan məlumatlar əsasında ölkə üzrə ümumi hesabat hazırlayır və bu hesabat həm rəsmi saytda dərc olunur, həm də Nazirlər Kabinetinə təqdim edilir. Bu cür hesabatlılıq modeli nəticələrin qiymətləndirilməsi və qərarvermədə sübutlara əsaslanma baxımından xüsusi əhəmiyyət daşıyır. Maraqlı və önəmli məqam budur ki, Ədliyyə Nazirliyi və Dövlət Statistika Komitəsi qohum nikahlarına dair illik statistik məlumatların toplanması və təhlili üzrə xüsusi öhdəlik daşıyır. Bu məlumatlar cəmiyyətin strukturunda baş verən dəyişiklikləri izləməyə, regional fərqləri və meyilləri analiz etməyə imkan verir. Məsələn, 2021-ci ildə qan qohumları arasında 2 min 363 nikah qeydə alınıb, bu nikahların 204-ü pozulub. 2022-ci ildə isə bu rəqəm 2 min 542-yə yüksəlib, pozulan nikahların sayı 608-ə çatıb ki, bu da cəmi bir il ərzində 3 dəfəyə yaxın artım deməkdir.

Dövlət tərəfindən qanunvericilik bazasının təkmilləşdirilməsi, maarifləndirmə tədbirləri və institusional mexanizmlər həyata keçirilsə də, bəzi ailələrdə kök salmış stereotiplər və patriarxal düşüncə bu tədbirlərin effektivliyini zəiflədən başlıca amillərdən idi. Qohumlar arasında nikaha pozitiv yanaşma bəzi ailələrdə "etibar edilən mühit"də evlilik kimi arqumentlərlə əsaslandırılır. Lakin bu yanaşma genetik və sosial nəticələr baxımından daha ağır fəsadlara yol açır. Azərbaycan qanunvericiliyində qohum nikahlarına qoyulan məhdudiyyətlərdə dünya təcrübəsindən də istifadə olunub. Belə ki, ABŞ-ın 24 ştatında, Çin, Cənubi Koreya, Estoniya, Türkiyə, Ukrayna, Tacikistan və Gürcüstanda baba və ya nənəsi ortaq olan şəxslər arasında nikaha icazə verilmir.

Azərbaycanda qan qohumları arasında nikahların qarşısını almağa yönəlmiş hüquqi çərçivə daha da sərtləşdirilib. İyulun 1-dən etibarən Azərbaycanda qohum evlilikləri qadağan edilib. Ailə Məcəlləsinə əsasən bu şəxslər arasında nikahın bağlanmasına yol verilməyəcək: qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları; bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu. Hazırkı qanunvericiliyə əsasən, yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar); övladlığa götürənlər və övladlığa götürülənlər, ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər; Məcəllənin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməyən şəxslər; ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya əqli gerilik nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilənlər arasında nikahın bağlanmasına yol verilmir.



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin aparıcı məsləhətçisi Leyla Abdinova** bildirib ki, qanunların aliliyi prinsipinə əsasən hər kəsin qanunlara qeyd-şərtsiz əməl etməsi tələb olunur: "Bu qadağa insanların məsələyə tam ciddi yanaşması, heç bir bəhanə, əsas, səbəb gətirməyərək qanuna tabe olması və beləliklə gələcək sağlam nəslin qorunması üçün qəbul edilmiş qanuna tam riayət etməsi üçün vasitədir. Qohum nikahları, xüsusilə əmiqızı-əmioğlu, xalaqızı-xalaoğlu və s. arasında bağlanan nikahlar bir çox ölkədə həm tibbi, həm hüquqi, həm də sosial baxımdan narahatlıq doğuran ciddi məsələdir. Belə nikahlar, nəinki ailə institutunun sağlam şəkildə formalaşmasına, həm də gələcək nəsillərin fiziki və psixoloji rifahına ciddi mənfi təsir göstərir. Qohum nikahları zamanı hər iki valideynin eyni genetik xəstəlik daşıyıcısı olması ehtimalı artır. Nəticədə belə ailələrdə dünyaya gələn uşaqlarda genetik pozuntuların, anadangəlmə inkişaf qüsurlarının, fiziki və əqli gerilik hallarının, eləcə də irsi xəstəliklərin ortaya çıxma riski kəskin şəkildə yüksəlir. Mütəxəssislər bildirirlər ki, qohum evlilikləri nəticəsində doğulan uşaqlarda bu cür xəstəliklərin yaranma ehtimalı 3-5 dəfə artıq olur. Belə uşaqlar tez-tez uzunmüddətli tibbi müdaxiləyə, reabilitasiyaya və sosial dəstəyə ehtiyac duyur. Bu da ailələrin psixoloji və maddi yükünü artırmaqla yanaşı, dövlətin səhiyyə və sosial təminat sisteminə də ciddi təsir göstərir. Qohum nikahları nəticəsində sağlamlıq imkanları məhdud olan uşaqların sayında baş verən artım cəmiyyət daxilində sosial cəhətdən həssas qrupların genişlənməsinə səbəb olur. Belə ailələr tez-tez yoxsulluq, təhsil imkanlarının məhdudluğu və sosial ayrı-seçkiliklə qarşılaşırlar. Bu da onların cəmiyyətə inteqrasiyasını çətinləşdirir və sosial bərabərsizliyin dərinləşməsinə yol açır. Bundan əlavə, qohum nikahları adətən patriarxal və ənənəvi ailə strukturlarının dominant olduğu cəmiyyətlərdə daha geniş yayılmışdır. Bu da çox zaman qadınların azad seçim hüququnun məhdudlaşdırılmasına, erkən nikah hallarının artmasına və qadınların hüquqlarının pozulmasına gətirib çıxarır".

L.Abdinova, həmçinin bildirib ki, belə qadağaların qoyulmasının başlıca səbəbi ölkədə gələcək nəsillərin və genofondun qorunmasıdır: "Qadağa ilə yanaşı, ictimai fəal insanların, gənclərin məlumatlı olaraq belə halların qarşısının alınmasında yaxından iştirak etməsi, fəallıq göstərməsi də cəmiyyətdə qohum evlilikləri ilə bağlı düzgün fikrin, münasibətin formalaşmasına töhfə verəcək. Bu qadağa sağlam gələcəyin, sağlam ailələrin qurulmasında əhəmiyyətli rol oynayacaqdır. Qanunun qüvvəyə minməsinə baxmayaraq, əhalinin, xüsusilə də ailə qurmağa hazırlaşan cütlüklərin qohum evliliyinin təsirləri/fəsadları haqqında mütəmadi olaraq məlumatlandırılmasına yenə də ehtiyac vardır. Maarifləndirmə və məlumatlandırma tədbirləri sistemli şəkildə aparılmalı və ixtisaslaşmış mütəxəssislərin iştirakı ilə həyata keçirilməlidir".



**Millət vəkili Jalə Əliyeva** deyib ki, bu, ötən il Azərbaycan Respublikası Milli Məclisində qəbul edilən qohum evliliklərinin qadağan olunmasına dair qanunun rəsmi təsdiqidir: "Qanun layihəsinin qüvvəyə minməsi üçün birillik keçid müddəti nəzərdə tutulmuşdu ki, bu da humanist yanaşma idi. Çünki həmin dövrə qədər artıq nişanlı olan və izdivaca hazırlaşan cütlüklər vardı. Onlara bu bir il ərzində nikahlarını qeydiyyatdan keçirmək üçün hüquqi imkan tanındı. Lakin biz inanırıq ki, ailə qurmağa hazırlaşan cütlüklər bu qanunu anlayışla qarşılayacaqlar və qarşılamalıdırlar. Çünki burada söhbət sadəcə iki insanın birliyindən yox, ailənin gələcəyindən və ən əsası, doğulacaq uşaqların sağlamlığından gedir. Burada təkcə fiziki deyil, psixoloji sağlamlıq da nəzərdə tutulur. Təəssüf ki, son illərin statistikası göstərir ki, qan qohumluğu əsasında qurulan nikahların nəticəsində genetik xəstəliklərlə doğulan uşaqların sayı artır. Bu xəstəliklər arasında qan xəstəlikləri, autizm, hemofiliya, talessemiya, ürək qüsurları və digər ciddi pozuntular mövcuddur. Bu hallar çox vaxt bir ailənin özülünü sarsıtmaqla yanaşı, cəmiyyət üçün də əlavə sosial yük yaradır. Bu səbəbdən də sağlam ailələrin və sağlam nəslin formalaşdırılması dövlətimiz üçün prioritet məsələdir və bu istiqamətdə atılan hüquqi addım, yəni qohum evliliklərinin qadağan olunması tibbi, psixoloji və mənəvi baxımdan olduqca əhəmiyyətlidir. Xüsusilə də birinci dərəcəli qohumların evliliyi etik və əxlaqi baxımdan da doğru qarşılanmamalıdır. Çünki bu şəxslər bioloji olaraq birinci dərəcəli sayılmasalar da, faktiki olaraq bacı və qardaş münasibətinə bənzər yaxınlıqdadırlar. Bu, obyektiv reallıqdır. Ona görə də hesab edirəm ki, yeni qanun cəmiyyətdə anlayışla qarşılanacaq".








**Ailə və Uşaqlara Sosial Dəstək İB-nin rəhbəri Elnurə Abuşova** bildirib ki, qohum evliliyinin qadağan olunması cəmiyyətin genetik təhlükəsizliyini təmin edən mühüm qərardır: "İyulun 1-də qohum evliliyini ləğv edən qərar qüvvəyə minib. Bu, genefondumuzun qorunması üçün çox vacib, bəlkə də gecikmiş qərardır. Qohum evliliklərinin hüquqi baxımdan qadağan edilməsi Azərbaycanda ailə və uşaqların rifahı, sağlamlığı sahəsində atılan strateji və zəruri addımlardan biridir. Cəmiyyətimizin sağlam inkişafı, gələcək nəsillərin fiziki və psixoloji sağlamlığı naminə bu qərarın verilməsi və qüvvəyə minməsi olduqca əhəmiyyətlidir. Bu məsələ uzun illərdir ki, təkcə tibbi yox, eyni zamanda sosial, hüquqi və psixoloji prizmalardan geniş şəkildə müzakirə olunurdu. Tibbi cəhətdən sübuta yetirilib ki, qohum evlilikləri genetik xəstəliklərin yaranma riskini əhəmiyyətli dərəcədə artırır. Eyni genetik kodlara malik olan şəxslərin evliliyi nəticəsində irsi xəstəliklərin ötürülməsi, anadangəlmə qüsurlar, əqli və fiziki geriliklər, eşitmə, görmə problemləri, metabolik pozuntular, erkən ölüm hallarının artması müşahidə olunur. Sağlam uşaq dünyaya gəlməyən ailələrdə ab-hava kəskinləşir, qohumlar arasında cinayətə qədər yol ala biləcək narazılıqlar yaranır. Mütəxəssislərin rəyinə əsasən, bu evliliklərdən doğulan uşaqlarda sağlamlıqla bağlı ağır fəsadların riski adi evliliklərə nisbətən 2-3 dəfə çoxdur: "Bu da təkcə ailələrə deyil, ümumən səhiyyə sisteminə ciddi iqtisadi və sosial yük gətirir. Xarici ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə qohum evlilikləri ilə bağlı ciddi hüquqi və inzibati məhdudiyyətlər mövcuddur: Almaniya, İsveçrə və Avstriya kimi Avropa ölkələrində birinci və bəzən ikinci dərəcəli qohumlar arasında nikahlar qanunla tam qadağandır. Türkiyə uzun illərdir ki, evlilik öncəsi tibbi müayinələri məcburi edərək bu tip nikahların qarşısını almağa çalışır. İran və Pakistan kimi ölkələrdə ənənəvi olaraq yayılmış qohum evliliklərinin qarşısını almaq üçün genetik məsləhət mərkəzləri və maarifləndirici kampaniyalar yaradılıb. ABŞ və Böyük Britaniyada bəzi etnik qruplarda bu cür nikahların fəsadları ilə bağlı hökumət tərəfindən tədqiqatlar aparılıb, ailələrə könüllü genetik testlər təklif olunur. Xarici ölkələrin təcrübələri göstərir ki, qohum evliliklərinin qarşısının alınmasına təkcə hüquqi qadağa deyil, maarifləndirmə, sosial dəstək və tibbi profilaktika da təsir edə bilir. Qohum evlilikləri bir çox hallarda sosial və mədəni stereotiplər üzərində formalaşır. Bu evliliklərin bir hissəsi "əmlak ailədə qalsın", "yad yerə qız getməsin" və ya "tanış adamla evlənmək daha etibarlıdır" kimi düşüncələrlə əsaslandırılır. Lakin bu ənənəvi yanaşma çox vaxt sağlamlıq problemləri yaşayan övladların dünyaya gəlməsi ilə nəticələnir. Bu zaman valideynlərdə ciddi psixoloji yüklənmə baş verir, yuxarıda da qeyd etdiyim kimi ailədaxili münaqişələr artır, bu da sosial təcrid və hətta boşanma hallarının çoxalması ilə nəticələnir. Ən ağrılı məqamlardan biri odur ki, bu ailələrdə doğulan uşaqların sosial adaptasiyası və təhsilə cəlbi çətinləşir, onların gələcəkdə özlərinə həyat qurması müşkülə çevrilir".

QHT rəhbəri həmçinin qeyd edib ki, Azərbaycan dövləti ailə siyasətində uşaqların və ailənin qorunmasını prioritet sayır: "Konstitusiyamıza və digər hüquqi sənədlərə görə, hər bir uşaq sağlam və təhlükəsiz mühitdə böyümək hüququna malikdir. Bu baxımdan, qohum evliliyinin hüquqi qadağası uşaqların sağlam doğulması və yaşaması üçün təminat rolunu oynayır. Qüvvəyə minən qərardan gözləntilər çoxdur. Bu qərar genetik risklər minimuma endirəcək, ailə institutunu daha sağlam əsaslarda qurmağa kömək edəcək, tibbi və sosial xərclərin azalmasına səbəb olacaq, gələcək nəsillərin rifahına töhfə verəcək. Bu sahədə maarifləndirmə və ictimai dəstək mühüm rol oynayacaq. Məktəblərdə, media vasitəsilə, tibb müəssisələrində və dini liderlər səviyyəsində geniş maarifləndirmə işi aparılmalıdır. Ailə və Uşaqlara Sosial Dəstək İB olaraq biz bu məsələdə dövlətə dəstək verməyə bu barədə doğru informasiyanın yayılmasına töhfə verməyə hazırıq".

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**